**AQTA ilə əməkdaşlıq fəaliyyətləri**

- **9 fevral 2024** – Codex Trust Fund (Kodeks Etimad Fondu) tərəfindən Azərbaycanla bağlı videoçarx hazırlanıb, ölkəmizin qida təhlükəsizliyi sahəsindəki fəaliyyəti beynəlxalq səviyyədə təqdim edilib.
- **5 oktyabr 2023** – Bakıda "Avropa və Mərkəzi Asiyada qida standartlarının təkmilləşdirilməsi və Kodeksin fəaliyyətində iştirakın genişləndirilməsi" mövzusunda beynəlxalq tədbir keçirilib.
- **31 yanvar 2022** – "Kodeks Etimad Fondu" layihəsi çərçivəsində AQTA və AQTİ əməkdaşları üçün beynəlxalq ekspert Diego Varela tərəfindən onlayn təlim təşkil edilib. Məqsəd Milli Kodeks Sisteminin gücləndirilməsi olub.
- **20 aprel 2022** – AQTA və FAO nümayəndələri arasında "Kodeks Etimad Fondu" layihəsinin icrası, milli normativ bazanın təkmilləşdirilməsi və kommunikasiya imkanlarının artırılması mövzusunda görüş keçirilib.
- **18 oktyabr 2021** – Türkiyə mütəxəssisləri tərəfindən AQTA və AQTİ əməkdaşları üçün Milli Kodeks Sistemi üzrə ilk təlim keçirilib.
- **14 iyul 2021** – "Kodeks Etimad Fondu 2A" layihəsi çərçivəsində Azərbaycan, Türkiyə və FAO nümayəndələrinin iştirakı ilə Milli Kodeks Sisteminin qurulması istiqamətində görüş keçirilib.
- **6 iyul 2020** – AQTA-nın təşəbbüsü ilə hazırlanmış "Dayanıqlı və yüksək səviyyədə təşkil olunmuş Milli Kodeks Sisteminin yaradılması" layihəsi FAO və WHO tərəfindən uğurlu layihə kimi qəbul edilib.
- **4 oktyabr 2019** – Azərbaycanda qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi məqsədilə Kodeks Alimentarius Milli Komissiyasının ilk iclası keçirilib. Məqsəd milli sanitariya norma və qaydalarının beynəlxalq standartlara uyğunlaşdırılmasıdır.
- **19 iyul 2018** – Azərbaycan ilk dəfə Kodeks Alimentarius Komissiyasının Romada keçirilən 41-ci sessiyasında iştirak edib, qida təhlükəsizliyi üzrə beynəlxalq qərarların qəbulunda təmsil olunub.
- Eyni zamanda, AQTA fəaliyyətə başladığı vaxtdan Kodeks Alimentariusun yeddi Komitəsinin sessiyalarında iştirak etmiş və prioritet olaraq altı Komitənin fəaliyyətinin izlənilməsini planlaşdırır.
- Bundan əlavə, AQTA Avropa regionu üzrə FAO/ÜST-nin Koordinasiya Komitəsinin növbəti koordinatoru olmaq niyyətini rəsmi şəkildə bəyan etmiş, həmçinin Kodeks Alimentarius İcra Komitəsində məsləhətçi qismində iştirak üçün danışıqlar aparmışdır.